**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 126

Bakı şəhəri „30" dekabr 2012-ci il

**"Səhiyyə müəssisələrinə həkimlərin müsabiqə yolu ilə mərkəzləşdirilmiş qaydada işə qəbulunun təşkili barədə"**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 22.4-cü bəndinə əsasən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan səhiyyə müəssisələrində vakant vəzifələrə həkimlərin müsabiqə yolu ilə mərkəzləşdirilmiş qaydada işə qəbulunun həyata keçirilməsi məqsədilə

## ƏMR EDİRƏM:

1. Səhiyyə müəssisələrinə həkimlərin müsabiqə yolu ilə mərkəzləşdirilmiş qaydada işə qəbulu Qaydaları təsdiq edilsin (əlavə olunur).

2. Müsabiqənin keçirilməsi məqsədi ilə bu əmrə əlavə olunan tərkibdə Səhiyyə Nazirliyinin Komissiyası yaradılsın.

3. Kadrlar, elm və təhsil şöbəsinin müdiri K.Mehdiyevaya tapşırılsın:

3.1. vakant həkim vəzifələr barədə Səhiyyə Nazirliyinin elektron məlumat bankı yaradılsın;

3.2. müvafiq ixtisaslar üzrə imtahanlarda istifadə ediləcək test sualları hazırlansın;

5. Respublikanın səhiyyə idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın ki, vakant vəzifələr yarandığı halda məlumatlar nazirliyin kadrlar, elm və təhsil şöbəsinə dərhal göndərilsin.

6. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, nazirliyin müvafiq struktur bölmələri ilə birgə tibb müəssisələrinin tarifləşmə cədvəllərinə baxılsın, ştat cədvəllərində zəruri dəyişikliklər edilərək müəyyən edilmiş qaydada təsdiqə təqdim edilsin.

7. Mətbuat katibi A.Qədirliyə tapşırılsın ki, həkimlərin işə qəbulunun mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi ilə bağlı məlumatı Səhiyyə Nazirliyinin internet saytında və kütləvi informasiya vasitələrində dərc olunması təmin edilsin.

8. Bu əmr imzalandığı gündən qüvvəyə minsin.

9. Əmrin icrasına nəzarət Nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**